# İrəvan sülhdən niyə yayınır?!

## Revanşistlər Konstitusiya Məhkəməsinin qərarına qarşı ciddi etirazlara başlayıblar



**Ermənistan rəhbərliyi bütün reallıqları etiraf edirsə və çıxış yolunu Azərbaycanla münasibətlərin normallaşmasında görürsə, niyə sülh müqaviləsinin imzalanması uzanır?**

Azərbaycanın şərtləri bəllidir. Ermənistan konstitusiyasında dəyişiklik edilmədən sülh müqaviləsi imzalana bilməz. Artıq Hayastanda bununla bağlı müzakirələr də başlayıb. Ermənistan Konstitusiya Məhkəməsi ölkə konstitusiyasının preambula hissəsində müstəqillik aktına istinadı etibarsız sayıb. Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin imzalanmasında ən böyük əngəllərdən biri məhz həmin bölmə idi. Bununla yanaşı, Ermənistan Konstitusiya Məhkəməsi 26 sentyabr tarixli qərarında Azərbaycan və Ermənistan sərhədlərinin demarkasiyası üzrə komissiyaların birgə fəaliyyətinin əsasnaməsində təsbit olunmuş öhdəliklərin konstitusiyaya uyğun olduğunu qəbul edib.

Ermənistanda revanşist qüvvələr isə hələ də Qarabağ və "Miatsum" xəyal və illüziyaları ilə yaşamaqda davam edir. Ermənistanın bədnam və revanşist "Ayakve" hərəkatı bu qərara etiraz edən bəyanat yayıb. Bəyanatda qeyd olunur ki, bu qərar Konstitusiya Məhkəməsinin "Ermənistan və Qarabağın yenidən birləşdirilməsi" ilə bağlı müstəqillik bəyannaməsində təsbit olunmuş məqsəd kimi şərh edilə bilməz, buna görə də Ermənistan Respublikasının konstitusiya öhdəliyi kimi qəbul edilə bilməz. Ermənistanın konstitusiya quruluşunu və sabitliyini, konstitusiya-hüquqi əsaslarının davamlığını təmin etmək üçün yaradılmış Konstitusiya Məhkəməsi bununla da mövcud rejimin göstərişi ilə ölkədəki konstitusiya çevrilişinin iştirakçısına çevrilir. Bu qərar Qarabağın Ermənistana birləşməsi ("Miatsum") məsələsində yurisdiksiyasına ağır zərbə vurmaqla yanaşı, erməni dövlətçiliyinin itirilməsi deməkdir. Parlamentdə "Ermənistan" fraksiyasının təmsilçiləri də ölkədə revanşizmi dəstəkləyir və geri addım atmayacaqlarını bildirirlər. Düzdür, Ermənistan parlamentində müxalifət azlıq təşkil etdiyindən onların hansı fikirdə olmaları önəmli deyil. Onlar sadəcə ictimai rəyi çaşdırmaqla məşğuldur və Paşinyanı təslimçilikdə günahlandırırlar.

"Ermənistan" fraksiyasından deputat Artsvik Minasyan iddia edib ki, ölkə konstitusiyasında dəyişiklik, guya, erməni dövlətçiliyinin itirilməsi deməkdir: "Konstitusiya Məhkəməsi öz qərarı ilə manipulyasiya edir və sanki konstitusiya ilə istiqlal bəyannaməsi arasında ziddiyyətlər varmış kimi ictimaiyyəti çaşdırmağa çalışır".

Minasyan əlavə edib ki, konstitusiyanın preambulasının dəyişdirilməsi Konstitusiya Məhkəməsinin səlahiyyətinə aid deyil: "Bu, heç kim, o cümlədən əsas qanunu qəbul edən şəxslər tərəfindən dəyişdirilə bilməz. Ali Məhkəmə öz qərarında qeyd edir ki, bu reqlament (Ermənistan-Azərbaycan sərhədinin delimitasiyası və demarkasiyası üzrə komissiyanın işi haqqında) sərhədi optimallaşdırmaq imkanı verir. Lakin optimallaşdırma sərhədlərin dəyişdirilməsini tələb edir. Qərarın sonuncu hissəsində Konstitusiya Məhkəməsi referendum məsələsinə toxunur. Lakin ratifikasiya predmetinin əsasnamələrini və ya ən azı, tərəflərin imzalayacağı protokolların lazım olduğunu göstərmir. Bu isə o deməkdir ki, Konstitusiya Məhkəməsi öz qərarı ilə erməni tərəfinin güzəştlərini ört-basdır edir.

Konstitusiya məsələləri üzrə erməni ekspert Qohar Meloyan öz "Feysbuk" səhifəsində yazıb ki, ictimai arenaya atılan bölücü mövzularla gündəmdəki ciddi saxtakarlıqları gizlətmək normaya çevrilib: "Konstitusiya Məhkəməsi minanı partladıb. Nə baş verib? Konstitusiya Məhkəməsinin 26 sentyabr tarixli SDO-1749 saylı qərarı ilə: müstəqillik bəyannaməsi "uşağı yeyən valideyn"ə bənzədilib, onda göstərilən bir sıra prinsiplərdən imtina edilib, xüsusən də Konstitusiya Məhkəməsi, sadəcə olaraq, Ermənistanın Qarabağ məsələsindən imtina etdiyini təsbit edib".

Ermənistan parlamentinin sədri Alen Simonyanın sözlərinə görə, Ermənistan Konstitusiyası sülhün imzalanmasına heç bir maneə yaratmır və Azərbaycan tərəfinin Ermənistanın əsas qanununa istinadları doğru deyil. Yerli jurnalistlər Simonyana "Niyə belə olan halda BMT tribunasından Ermənistanın baş naziri Nikol Paşinyan ziddiyyət yaranarsa, Ermənistanın Konstitusiyanı dəyişdirməyə hazırıq" kimi bəyanat verir sualını ünvanlayıblar. Erməni spiker baş nazirin belə bir söz işlətmədiyini bildirib: "O qeyd edib ki, bütün beynəlxalq müqavilələr Konstitusiya Məhkəməsində Konstitusiyaya uyğunluq prosedurundan keçir. Konstitusiya Məhkəməsi hazırlanmış sənədlə Əsas Qanun arasında ziddiyyətlər görsə, hansısa maneələrdən danışmaq olar. Amma bu ziddiyyətlər olmayacaq".

Hər halda proseslərin gedişi Ermənistanı qarşıdakı dövr ərzində daha çətin günlərin gözlədiyini göstərir.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

Azərbaycan.- 2024.- 3 oktyabr (№ 216).- S.16.